# İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları

## Proqram 3 - Əməkdaşlıq

*İştirakçı kitabçası*

Hazırladı:

Dr Peter Grimes
Marieke Stevens
Arlene dela Cruz
Tricia Mercado
Kaisa Ligaya Sol Cruz

Sifarişçi:

UNİCEF-in Azərbaycandakı Nümayəndəliyi
"Regional İnkişaf" İctimai Birliyi

Yanvar, 2019

## Mündəricat

**İxtisarların siyahısı ..... 4**

**Giriş ..... 5**

**Bölmə 3.1 İnklüziv təhsil üçün əməkdaşlıq: indi hansı mərhələdəyik? ..... 7**
**Ümumi məlumat ..... 7**
Bölmənin məqsədləri: ..... 7
Bölmənin məzmunu: ..... 7
**Giriş ..... 7**
**Əməkdaşlıq praktikası barədə refleksiya etmək ..... 7**
**Yekun qeydlər ..... 8**
**Bölmə 3.1 üzrə Köməkçi vərəqələr ..... 9**
"A" köməkçi vərəqəsi: Əməkdaşlıq və məlumat mübadiləsi ilə bağlı praktika barədə refleksiya üçün işçi vərəqi ..... 9
"B" köməkçi vərəqəsi: Fərdi refleksiya forması ..... 11

**Bölmə 3.2 İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq ..... 14**
**Ümumi məlumat ..... 14**
Bölmənin məqsədləri: ..... 14
Bölmənin məzmunu: ..... 14
**Giriş ..... 14**
**İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq ..... 15**
**İnklüziv təhsil üçün peşəkar təlim icmaları ..... 15**
**Bölmə 3.2 üzrə Köməkçi Vərəqələr ..... 18**
"A" köməkçi vərəqəsi: Məktəbimizdə əməkdaşlıq mədəniyyətinin yaradılması ..... 18
"B" köməkçi vərəqəsi: İlkin pedaqoji təhsil alan tələbələr arasında əməkdaşlıq mədəniyyətinin yaradılması ..... 21

**Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlığı yaxşılaşdırmaq üçün strategiyalar ..... 22**
**Ümumi məlumat ..... 22**
Bölmənin məqsədləri ..... 22
Bölmənin məzmunu ..... 22
**Giriş ..... 22**
**Müəllimlər arasında əməkdaşlıq ..... 22**
**Yekun qeydlər ..... 22**
**Bölmə 3.3 üzrə Köməkçi Vərəqələr ..... 23**
"A" köməkçi vərəqəsi: Məktəbimizdə əməkdaşlıq mədəniyyətinin yaradılması ..... 23
**Öz praktikana daxil et: Əməkdaşlıq mədəniyyətinin yaradılması** ..... 23
"B" köməkçi vərəqəsi: İlkin pedaqoji təhsil alan tələbələr arasında əməkdaşlıq mədəniyyətinin yaradılması ..... 24
**Öz praktikana daxil et: Əməkdaşlıq mədəniyyətinin yaradılması** ..... 24
"C" köməkçi vərəqəsi: Müəllimlər arasında əməkdaşlıq modelləri ..... 25
"D" köməkçi vərəqəsi: Eşidilməyən səslər: Valideynlərin baxış bucaqlarını öyrənmək ..... 27

**Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq ..... 29**
**Ümumi məlumat ..... 29**

Bölmənin məqsədləri: 29
Bölmənin məzmunu: 29
**Giriş** 29
**Valideynlərin və icmanın cəlb edilməsi, niyə və necə?** 29
**Valideynlər və icma ilə əməkdaşlıq strategiyaları və müəllimlərin rolu** 30
**Tapşırıq: İcmanın sxematik təhlili** 30
**Yekun qeydlər** 30
**Bölmə 3.4 üzrə Köməkçi Vərəqələr** 31
"A" köməkçi vərəqəsi: Nəticələri bölüşmək - Valideynlərin eşidilməyən səsləri 31
"B" köməkçi vərəqəsi: Valideynlər və icma ilə əməkdaşlıq, niyə və necə? 32
"C" köməkçi vərəqəsi: Valideynlərlə və icma ilə əməkdaşlıq strategiyaları 33
Proqram 3 - Əməkdaşlıq 33
"D" köməkçi vərəqəsi: Valideynlərin və icmanın cəlb olunmasında müəllimlərin rolu 34
"E" köməkçi vərəqəsi: İcmanın sxematik təhlili aləti 35

**Bölmə 3.5 - Digər peşə sahibləri ilə əməkdaşlıq** 37
**Ümumi məlumat** 37
Bölmənin məqsədləri 37
Bölmənin məzmunu 37
**Giriş** 37
**İnklüziv təhsildə tərəfdaşlar** 37
**Yekun qeydlər** 37
**Ümumiləşdirmə və yekun qeydlər** 38
**Bölmə 3.5 üzrə Köməkçi Vərəqələr** 39
"A" köməkçi vərəqəsi: İnklüziv təhsildə tərəfdaşlar 39

**İstinadlar** 41

## İxtisarların siyahısı

| | |
|---|---|
| PTİ | Peşəkar Təlim İcması |

# Giriş

İkinci proqramda inklüziv təhsilin insan hüquqlarına əsaslanan yanaşma çərçivəsində əsas prinsiplərini öyrəndik. Bununla yanaşı, sizinlə birlikdə inklüziv təhsili tənzimləyən hüquqi çərçivələr, əlilliyə yanaşmanın müxtəlif modelləri və sosial yanaşmanın inklüzivlik üçün nə qədər əhəmiyyətli olduğu barədə məlumatlar əldə etdik. Biz, həmçinin, öz daxili dəyərlərimizə diqqət yetirməyin zəruriliyi və bu dəyərlərin sinifdə və məktəbdə hərəkətlərimizə, digər şəxslərlə qarşılıqlı münasibətlərimizə necə təsir göstərdiyi barədə fikirlərimizi bölüşdük.

İnklüziv təhsil digər sahələrdən təcrid olunmuş şəkildə baş vermir. Hər hansı məktəbi inklüziv məktəbə çevirmək üçün müəllimlər, məktəb rəhbərləri və icma birlikdə mürəkkəb bir yol qət edir. Üçüncü proqramın məqsədi müəllimlər, daha geniş məktəb icması və digər peşə sahibləri arasında əməkdaşlığa təkan verməkdir.

Bölmə 1.3-də əməkdaşlıq təlim və təhsilin yenidən qurulması üçün əsas kimi təqdim olundu. 3-cü Proqramda əməkdaşlığa və məktəbdə daha inklüziv təhsil mühitinin yaradılması üçün əməkdaşlığın formalaşdırılması yollarına daha dərindən nəzər salınır. Ümumi məlumat kitabçasında vurğulandığı kimi, müəllimlərin ən yaxşı öyrəndiyi mühit onlara dəstək verən, inam və paylaşma mədəniyyətinin olduğu və birlikdə öyrəndikləri münbit mühitdir. Müəllimlər onlara kifayət qədər dəstək göstərildiyini bildikləri zaman, yeni tədris strategiyalarını təcrübədən keçirməyə daha həvəsli olurlar və tədris və öyrənmə prosesinin təkmilləşdirilməsində, bununla da təhsilalanların təlim nəticələrinin yaxşılaşdırılmasında daha fəal iştirak edirlər. Məktəblərdə müəllimlərin təlim icmalarının yaradılması əməkdaşlıq mədəniyyətinin yaradılmasına stimul verə bilər. Təlim qrupları və qrup məşğələləri ilkin pedaqoji təhsil alan tələbələrin əməkdaşlıq və kommunikativ bacarıqlarını inkişaf etdirmək üçün uyğun vasitələrdir. Valideynlərin və daha geniş icmanın cəlb olunması da inklüziv təhsilin tətbiqində çox vacib əhəmiyyət daşıyır. Məktəb əməkdaşlıq mühiti yaratmalı və əlilliyi olan uşaqlara təhsildə hərtərəfli dəstək göstərmək üçün icma ilə tərəfdaşlıq etməlidir.

Bu proqram üç bölmədən ibarətdir:

- **Bölmə 3.1 - İnklüziv təhsil üçün əməkdaşlıq: İndi hansı mərhələdəyik?**
  Proqram inklüziv təhsilə dəstək vermək üçün mövcud və ya zəruri əməkdaşlıq yollarının müzakirəsi ilə başlayır. Burada müəllimlər, təhsil menecerləri, valideynlər və icma arasında siniflərdə inklüzivliyin dəstəklənməsinə yönələn məlumat mübadiləsi və əməkdaşlıq metodlarına nəzər salınır. Bölmə, həmçinin, iştirakçıların müxtəlif maraqlı tərəflərlə işləyərkən və həll yolları formalaşdırarkən üzləşdikləri çətinlikləri müəyyənləşdirməkdə kömək edir.

- **Bölmə 3.1 - Müəllimlər arasında əməkdaşlıq**
  İkinci bölmə iştirakçıların müəllimlərin inklüziv təhsil kontekstində birgə çalışmasının və öyrənməsinin vacibliyini başa düşmələrinə kömək edəcək. Burada müəllimlərin məktəbin təkmilləşməsi üçün istifadə edə biləcəyi xüsusi strategiyalar təqdim olunur, informasiya mübadiləsi ilə bağlı mövcud təcrübələr və üsullar təhlil olunur və məktəbdə əməkdaşlıq mədəniyyətini daha da inkişaf etdirmək üçün istifadə edilə biləcək müxtəlif metodlara nəzər salınır.

- **Bölmə 3.2 - Valideynlər və icma ilə əməkdaşlıq**

İnklüziv sinif otaqlarının və məktəblərin yaradılması təkcə müəllimlərin öhdəliyi deyil. İnklüziv təhsilin uğurlu tətbiqi üçün geniş spektrli maraqlı tərəflərin, xüsusilə valideynlərin və daha geniş icmanın fəal iştirakı tələb olunur. Bu bölmədə valideynlərin və icmanın inklüziv təhsilin reallaşdırılmasında oynadığı rola, müəllimlərin onlarla işləyərək birlikdə təhsil prosesini inklüzivləşdirmələri üçün istifadə edilə biləcək yollara nəzər salınacaq.

- **Bölmə 3.5 - Digər peşə sahibləri ilə əməkdaşlıq**
  İnklüzivliyə vahid prizmadan baxılmalıdır. Digər sektorlardan, məsələn səhiyyə və sosial müdafiə sektorundan olan peşə sahibləri ilə əməkdaşlıq müəllimlərin əlilliyi olan uşaqlara hərtərəfli dəstək verməsinə imkan verir.

**Daha ətraflı məlumat**

İnklüziv təhsil sahəsində əməkdaşlıqla bağlı faydalı resurslar:

- **Peşəkar təlim icması nədir?**
  http://www.ascd.org/publications/educational-leadership/may04/vol61/num08/What-Is-a-Professional-Learning-Community%C2%A2.aspx
- **Peşəkar Təlim İcmasını necə yaratmaq olar**
  https://www.edutopia.org/professional-learning-communities-collaboration-how-to
- **Daha yaxşı məktəb-icma əməkdaşlığı üçün 5 addım**
  https://www.edutopia.org/professional-learning-communities-collaboration-how-to
  **Seminardan əlavə peşəkar inkişaf alternativləri**
  https://www.globalpartnership.org/blog/professional-development-alternatives-workshop

# Bölmə 3.1 İnklüziv təhsil üçün əməkdaşlıq: indi hansı mərhələdəyik?

## Ümumi məlumat

**Bölmənin məqsədləri:**

- İnklüziv təhsilin tətbiqində müxtəlif maraqlı tərəflərlə məlumat mübadiləsi və əməkdaşlığa dair təcrübələr barədə refleksiya etmək
- Məlumat mübadiləsi və əməkdaşlıqla bağlı boşluqların aradan qaldırılması üçün strategiyalar müəyyən etmək

**Bölmənin məzmunu:**

- Giriş
- Əməkdaşlıq təcrübələri barədə refleksiya etmək
- Yekun qeydlər

## Giriş

“Əvvəlki proqram sayəsində biz artıq bilirik ki, inklüziv təhsil tətbiqi çətin olan mürəkkəb bir konsepsiya ola bilər. O, qorxulu bir vəzifə kimi görünə bilər. Biz təhsilverənlərin düşüncə və təcrübələrdə etməli olduqları dəyişiklikləri düşünməyə başlasaq, bu, çox məşəqqətli görünə bilər. Bəzi müəllimlər öz siniflərini həqiqətən də inklüziv siniflərə çevirmək istəyirlər, lakin onlar bunun nə qədər çətin olacağını düşünəndə özlərini aciz hiss edir və başlamaq üçün kifayət qədər motivasiyaya malik olmurlar.

Bu proqramda biz inklüziv təhsilin müəllimin təkbaşına etməli olduğu bir şey olmadığını görəcəyik. Əslində heç kəs bunu təkbaşına edə bilməz. Digər müəllimlər, məktəb rəhbərləri və icma ilə əməkdaşlıq inklüziv təhsilin effektiv və faydalı şəkildə tətbiqi üçün zəruri aspektlərdən biridir. Bu proqramda müəllimlərin, valideynlərin və icmanın inklüziv məktəblərin qurulması kimi ortaq məqsədə doğru birgə işləməsi üçün üsullar təqdim olunacaq. Biz inklüziv təhsil kontekstində əməkdaşlıq barəsində, həmçinin məktəbdə əməkdaşlıq mühiti qurmaq və onu gücləndirmək üçün istifadə edə biləcəyimiz üsullar barədə daha ətraflı öyrənəcəyik.

## Əməkdaşlıq praktikası barədə refleksiya etmək

### “A” və “B” variantları - Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

Biz inklüziv təhsil sahəsində məlumat mübadiləsi və əməkdaşlıqla bağlı hazırkı praktikamıza nəzər saldıq. Bunun sayəsində biz həm də boşluqları və başqaları ilə birgə əməkdaşlıq üslubumuzu yaxşılaşdırmaq üçün həyat keçirə biləcəyimiz strategiyaları müəyyənləşdirdik.

### "C" variantı - İlkin pedaqoji təhsil alan tələbələr

Biz inklüziv təhsilin tətbiqi üçün hansı növ məlumat mübadiləsinin zəruri olması barədə refleksiya etdik, başqaları ilə əməkdaşlıq zamanı ortaya çıxa biləcək çətinlikləri proqnozlaşdıracaq və mümkün həll yollarını müəyyən edəcəyik.

## Yekun qeydlər

**“A” və “B” variantları - Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar**

Bu bölmədə biz müəllim həmkarlarımızla, valideynlərlə, təhsil orqanlarının işçiləri ilə və bütövlükdə icma ilə əməkdaşlıq yollarını nəzərdən keçirməyə başladıq. Biz həmçinin əməkdaşlıqla bağlı ortaya çıxan məsələləri və onların həlli üçün mümkün yolları müəyyən etdik. Biz bu mövzuların hər birinə sonrakı bölmələrdə nəzər salacağıq. Biz, həmçinin əməkdaşlığın hər bir növünü və məktəbimizi inklüzivləşdirmək üçün tərəfdaşlarla daha yaxşı necə işləyə biləcəyimizi nəzərdən keçirəcəyik. Növbəti sessiya müəllimlər arasında əməkdaşlığa köklənəcək. Sonrakı bölmələrdə icma və digər peşə sahibləri ilə əməkdaşlığa daha dərindən nəzər salınacaq.

**"C" variantı - İlkin pedaqoji təhsil alan tələbələr**

Bu bölmədə biz müəllim həmkarlarımızla, valideynlərlə, təhsil orqanlarının işçiləri ilə əməkdaşlıq yolları barədə düşünməyə başladıq və potensial çətinlikləri və əməkdaşlığı yaxşılaşdırmaq üçün yolları müəyyən etdik. Biz bu mövzuların hər birinə sonrakı bölmələrdə nəzər salacağıq. Biz, həmçinin əməkdaşlığın hər bir növünü və məktəbimizi inklüzivləşdirmək üçün tərəfdaşlarla daha yaxşı necə işləyə biləcəyimizi nəzərdən keçirəcəyik. Növbəti sessiya müəllimlər arasında əməkdaşlığa köklənəcək. Sonrakı bölmələrdə icma və digər peşə sahibləri ilə əməkdaşlığa daha dərindən nəzər salınacaq.

## Bölmə 3.1 üzrə Köməkçi vərəqələr

**“A” köməkçi vərəqəsi: Əməkdaşlıq və məlumat mübadiləsi ilə bağlı praktika barədə refleksiya üçün işçi vərəqi**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.1 İnklüziv təhsil üçün əməkdaşlıq: İndi hansı mərhələdəyik?
Məşğələ 3.1.1 - Əməkdaşlıq və məlumat mübadiləsi ilə bağlı praktika barədə refleksiya üçün işçi vərəqi

### “A” və “B” variantları: Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

| **Maraqlı tərəf** | **Hazırda hansı məlumatlar mübadilə edilir?** | **Hansı qaydada əməkdaşlıq edirsiniz? Məlumatlar hansı yolla** (məs. iclaslar, evə ziyarət və s.) **və hansı aralıqla mübadilə edilir?** | **Bu, sizə və sizin tədris fəaliyyətinizə necə kömək edir?** | **Məlumatların mübadiləsi və maraqlı tərəflərlə iş zamanı hansı çətinliklə üzləşirsiniz?** | **Əməkdaşlıq və məlumat mübadiləsini necə yaxşılaşdırmaq olar?** |
|---|---|---|---|---|---|
| Həmkarlar (digər müəllimlər) | | | | | |
| Təhsil rəhbərləri (buraya məktəb direktoru və digər yüksək vəzifəli təhsil işçiləri daxil ola bilər) | | | | | |
| Valideynlər | | | | | |
| İcma üzvləri | | | | | |
| Digərləri | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|

### “C” variantı: İlkin pedaqoji təhsil alan tələbələr

| **Maraqlı tərəf** | **Hansı məlumatlar mübadilə edilməlidir?** | **Hansı qaydada əməkdaşlıq edirsiniz? Məlumatlar hansı yolla** (məs. iclaslar, evə ziyarət və s.) **və hansı aralıqla mübadilə edilir?** | **Sizcə əməkdaşlıq və informasiya mübadiləsi inklüziv sinif otaqlarının/məktəblərin qurulmasına necə kömək edəcək?** | **Məlumatların mübadiləsi və maraqlı tərəflərlə iş zamanı hansı çətinlik ortaya çıxa bilər?** | **Əməkdaşlıq və məlumat mübadiləsini necə yaxşılaşdırmaq olar?** |
|---|---|---|---|---|---|
| Həmkarlar (digər müəllimlər) | | | | | |
| Təhsil rəhbərləri (buraya məktəb direktoru və digər yüksək vəzifəli təhsil işçiləri daxil ola bilər) | | | | | |
| Valideynlər | | | | | |
| İcma üzvləri | | | | | |
| Digərləri | | | | | |

**“B” köməkçi vərəqəsi: Fərdi refleksiya forması**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.1 - İnklüziv təhsil üçün əməkdaşlıq: İndi hansı mərhələdəyik?
Məşğələ 3.1.3 - Fərdi refleksiya

## "A" variantı: Ümumi təhsil müəllimləri

| **Fərdi refleksiya** | | |
|---|---|---|
| **Ümumi məlumat** | Ad | |
| | Məktəbin adı | |
| | Proqram | |
| | Bölmə | |
| **Bu bölmədə nə öyrəndim?** *(Sizin üçün yeni olan nə idi? Nəyi yadda saxlayacaqsınız? Nə faydalı oldu?)* | | |
| | | |
| **Sinifimdə və ya məktəbdə nəyi sınaqdan keçirə bilərəm?** | | |
| Nəyi sınaqdan keçirəcəyəm? | | |
| Niyə? | | |
| Bu, mənə tədrisin keyfiyyətini yaxşılaşdırmaqda necə kömək edəcək? | | |
| Bu, inklüziv müəllimə çevrilməyimə necə kömək edəcək? | | |
| Mənə bu anlayışı və ya təcrübəni tətbiq etməkdə nə kömək edəcək? | | |

## "B" variantı: Xüsusi pedaqoqlar

<table>
<tr><td colspan="3">Fərdi refleksiya</td></tr>
<tr><td rowspan="4">Ümumi məlumat</td><td>Ad</td><td></td></tr>
<tr><td>Məktəbin adı</td><td></td></tr>
<tr><td>Proqram</td><td></td></tr>
<tr><td>Bölmə</td><td></td></tr>
<tr><td colspan="3">Bu bölmədə nə öyrəndim? (Sizin üçün yeni olan nə idi? Nəyi yadda saxlayacaqsınız? Nə faydalı oldu?)</td></tr>
<tr><td colspan="3"></td></tr>
</table>

<table>
<tr><td colspan="2">Fəaliyyətimdə nəyi sınaqdan keçirə bilərəm?</td></tr>
<tr><td>Nəyi sınaqdan keçirəcəyəm?</td><td></td></tr>
<tr><td>Niyə?</td><td></td></tr>
<tr><td>Bu, inklüziv təhsilə dəstək göstərməyimə necə kömək edəcək?</td><td></td></tr>
<tr><td>Sizə bu konsepsiyanı və ya təcrübəni tətbiq etməkdə nə kömək edəcək?</td><td></td></tr>
</table>

### “C” variantı: İlkin pedaqoji təhsil alan tələbələr

<table>
<tr><td colspan="3">Fərdi refleksiya</td></tr>
<tr><td rowspan="4">Ümumi məlumat</td><td>Ad</td><td></td></tr>
<tr><td>Universitetin və ya kollecin adı</td><td></td></tr>
<tr><td>Proqram</td><td></td></tr>
<tr><td>Bölmə</td><td></td></tr>
<tr><td colspan="3">Bu bölmədə nə öyrəndim? (Sizin üçün yeni olan nə idi? Nəyi yadda saxlayacaqsınız? Nə faydalı oldu?)</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td colspan="3">Bu, inklüziv müəllimə çevrilməkdə mənə necə kömək edəcək?</td></tr>
<tr><td colspan="3"></td></tr>
<tr><td colspan="3">Bu, mənə müəllimlik bacarıqlarımı yaxşılaşdırmaqda necə kömək edəcək?</td></tr>
<tr><td colspan="3"></td></tr>
</table>

# Bölmə 3.2 İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq

## Ümumi məlumat

**Bölmənin məqsədləri:**

- İnklüziv təhsilin tətbiqi, təlim nəticələrinin yaxşılaşdırılması və ümumilikdə məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlığın vacibliyini anlamaq
- Müəllimlərin birlikdə öyrənmək, təcrübələrini bölüşmək və birlikdə problemləri həll etmək vasitəsilə öz tədris fəaliyyətlərini yaxşılaşdırdıqlarını anlamaq
- Təhsilalanların nailiyyətlərini yaxşılaşdırmaq üçün müəllimlərin davamlı əməkdaşlıq çərçivəsi kimi peşəkar təlim icmalarını təqdim etmək

**Bölmənin məzmunu:**

- Giriş
- İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq
- İnklüziv təhsil üçün peşəkar təlim icmalarının yaradılması
- Müəllimlər arasında əməkdaşlığı yaxşılaşdırmaq üçün strategiyalar
- Ümumiləşdirmə və yekun qeydlər

## Giriş

### "A" və "B" variantları - Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

Əvvəlki sessiyada biz inklüziv təhsili tətbiq etmək üçün birlikdə çalışmağın dəyərini anlamağa başladıq. Biz müəllim həmkarlarımız, valideynlər və məktəb icması ilə əməkdaşlıq və məlumat mübadiləsi ilə bağlı cari təcrübələrimizi müəyyənləşdirdik. Biz həmçinin əməkdaşlıq tərzimizi yaxşılaşdırmaq üçün çətinlikləri və tədricən sınaqdan keçirə biləcəyimiz metodları müəyyən etməyə çalışdıq ki, əməkdaşlıq daha səmərəli olsun və bizim inklüziv siniflər yaratmaq hədəfimizə daha yaxşı töhfə versin. Bu bölmədə biz spesifik olaraq müəllimlər arasındakı əməkdaşlığa köklənəcəyik. Sonrakı sessiyalarda biz əməkdaşlığın digər növlərinə nəzər salacağıq."

### "B" variantı - İlkin pedaqoji təhsil alan tələbələr

"Əvvəlki sessiyada biz inklüziv təhsili tətbiq etmək üçün birlikdə çalışmağın dəyərini anlamağa başladıq. Biz müəllimlərlə, valideynlərlə və məktəb icması ilə əməkdaşlıq yollarını müəyyənləşdirdik. Biz həmçinin əməkdaşlığı yaxşılaşdırmaq üçün potensial çətinlikləri və sınaqdan keçirə biləcəyimiz metodları müəyyən etməyə çalışdıq ki, əməkdaşlıq daha effektiv olsun və bizim inklüziv sinif otaqları yaratmaq məqsədimizə daha yaxşı töhfə versin. Bu bölmədə biz spesifik olaraq müəllimlər arasındakı əməkdaşlığa köklənəcəyik. Sonrakı sessiyalarda biz əməkdaşlığın digər növlərinə nəzər salacağıq.

## İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq

Biz 1.3-cü Bölmədə öyrənmişdik ki, öyrənmə sosial fəaliyyətdir. Müəllimlərin öyrənməsi üçün ən yaxşı vasitə əməkdaşlıq və iş yerində öyrənməkdir. Öyrənmə prosesi o zaman daha effektli olur ki, müəllimlər real həyatda yaşadıqları təcrübələri və çətinlikləri bir-biri ilə bölüşür və həll yollarını birgə formalaşdırırlar. İş yerində öyrənmə müəllimlərə öyrəndiklərini dərhal təcrübədən keçirmək imkanı verir.

## İnklüziv təhsil üçün peşəkar təlim icmaları

Müəllimlər inklüziv təhsili tətbiq edə bilmək üçün praktiki dəstəyə ehtiyac duyur. Bunu təmin etmək üçün peşəkar təlim icmaları və ya təcrübə icmaları yaradıla bilər. Bu sessiyada biz peşəkar təlim icmasının nə demək olduğunu, onun uğurunun əsas aspektlərini və onun inklüziv təhsilə necə töhfə verə biləcəyini müzakirə edəcəyik. Baxdığımız videodan öyrəndiklərinizin əksəriyyəti artıq bunları təsvir edir.

Peşəkar Təlim İcması "xidmət göstərdikləri təhsilalanların daha yaxşı nəticələr əldə etməsinə nail olmaq üçün təhsilverənlərin məsələlərə birgə baxış və fəaliyyətin tədqiqindən ibarət təkrarlanan sikllərlə, birgə çalışdığı davamlı prosesdir". Peşəkar təlim icmalarının fəaliyyətinin əsasında təhsilverənlərin iş yerində davamlı təliminin təhsilalanların daha yaxşı öyrənməsi üçün vacib olması prinsipi dayanır.[i]

PTİ-nin əsas prinsipləri:

1. **Təhsilalanların öyrənməsini təmin etmək**

Peşəkar təlim icması praktiki tətbiqetməyə və özünüqiymətləndirməyə şərait yaradan davamlı refleksiya prosesinə cəlb olunur. O, müəllimlərin tədris və öyrənmə prosesi barədə refleksiya etməsi üçün platforma kimi çıxış edir. Müəllimlər qarşıya çıxan məsələlərə bir yerdə baxır, problemləri birgə həll edir və öyrəndiklərini dərhal sinif otağında təcrübədən keçirirlər.

Peşəkar təlim icmasının əsas məqsədi "**təhsilalanlara sadəcə dərs keçilməsini deyil, onların öyrənməsini təmin etmək**"dir.

PTİ hər bir təhsilalanın öyrənməsini təmin etmək öhdəliyini üzərinə götürür və aşağıdakı kimi vacib suallara cavab axtarır:

- Biz hər bir təhsilalanın nəyi öyrənməyini istəyirik?
- Biz necə biləcəyik ki, hər bir təhsilalan bunu öyrənib?
- Təhsilalan öyrənməkdə çətinlik çəkəndə biz hansı tədbiri görəcəyik?

2. **Hər kəsin öyrənməsinə yönələn əməkdaşlıq mədəniyyəti**

Müəllimlər çox zaman qapılarını bağlayıb təcrid olunmuş şəraitdə işləməyə öyrəşiblər. Uğurlu Peşəkar Təlim İcması (PTİ) güclü əməkdaşlıq mədəniyyətinə malik olur. Əməkdaşlıq üçün inam tələb olunur. Biz inamın yaradılmasından 1-ci Proqramda bəhs etdik. PTİ-nin bütün üzvləri üçün rahat mühit yaratmaq və

onlara hörmət etmək vacibdir. Bu, səmimi və məhsuldar müzakirələrə şərait yaradan, açıq, qayğıkeş və müsbət mühitə imkan yaradır. Növbəti bölmədə müxtəlif əməkdaşlıq yollarından bəhs ediləcək.

Əməkdaşlıq nəticəyə çatmaq üçün bir vasitədir, özü nəticə deyil. PTİ kontekstində *əməkdaşlıq* dedikdə, müəllimlərin öz tədris praktikasına təhsilalanlar, heyət və məktəb üçün daha yaxşı nəticələr əldə etməyə imkan verən dəyişikliklər etmək üçün müstəqil şəkildə birgə çalışdığı sistemli proses nəzərdə tutulur.

### 3. Diqqəti nəticələrə yönəltmək

Təlim icmasının mahiyyətini diqqətin təhsilalanların öyrənməsinə yönəldilməsi təşkil edir. PTİ-nin təhsilalanların öyrənməsinə effektiv töhfə verməsi üçün onun özünün də davamlı olaraq öyrənməli olduğu hesab edilir. PTİ-lərin effektivliyi təhsilalanların nailiyyəti ilə ölçülür. PTİ-nin hər bir üzvü irəliləyişi müntəzəm monitorinq etməklə, təlim nəticələrinin cari səviyyəsinin yaxşılaşdırılması məqsədini güdür.

Nəticələrə bu cür köklənmə hər bir heyətin məktəbin və rayonun təhsillə bağlı məqsədləri ilə uzlaşan, ölçülə bilən inkişaf məqsədləri hazırlamasına və onlara nail olmağa çalışmasına gətirib çıxarır. Bu, həm də heyətləri təhsilalanların təlimi ilə bağlı davamlı dəlillər toplamaq üçün il ərzində bir neçə dəfə təhsilalanlara tətbiq edilən ümumi formativ qiymətləndirmələr yaratmağa sövq edir.

Onlar həm də bir-birindən öyrənmək üçün fərdi tədris fəaliyyətlərindəki güclü və zəif cəhətləri aşkar etmək üçün nəticələri incələyirlər. Ən əsası, qiymətləndirmələr öyrənmək üçün əlavə vaxta və dəstəyə ehtiyacı olan təhsilalanları müəyyən etmək üçün istifadə edilir.

PTİ bu prinsiplərə sadiq olarsa, bütün üzvlərin (müəllimlərin) yerli (məktəb əsaslı) təlim prosesində iştirakını təmin etmək üçün müvafiq strukturlar yaradılmalıdır. PTİ-nin və təlim mədəniyyətinin dayanıqlılığını qorumaq üçün bütün məktəbin, o cümlədən məktəb rəhbərliyinin prosesə cəlb olunması vacibdir.

Bunlar peşəkar təlim icmasının yaradılması üçün əsas elementlərdir.

- Effektiv PTİ aydın gələcəyə baxışa malikdir və əsas diqqətini təlim nəticələrinin yaxşılaşdırılmasına yönəldir.
- PTİ üzvləri ortaq və razılaşdırılmış dəyərlərə malikdir. Üzvlər soruşurlar: “Bizim üçün önəmli olan nədir? Biz nəyə dəyər veririk?”
- Formal strukturlar yaradılmalıdır. PTİ-lər birlikdə çalışmaq üçün protokollar yaradır, təlim sessiyaları üçün mütəmadi qrafik barədə razılığa gəlirlər. Təlim sessiyaları adətən məlumatlı bir həmkar, təlimatlandırma mütəxəssisi və ya baş müəllim tərəfindən aparılır.
- PTİ görüşlərinin əsas mövzuları təhsilalanların öyrənməsinə yönəlməlidir.
- PTİ praktiki tətbiqetməyə gətirib çıxaran davamlı refleksiya ilə məşğul olur. Müəllimlər birlikdə sinifdəki hər hansı problemi incələyir, strategiyalar yaradır və onu dərhal təcrübədən keçirir, nəyin uğurlu, nəyin uğursuz alındığını qiymətləndirir. Prosesdə müəllimlərin səriştələri inkişaf etdirilir və bu, təlim nəticələrinin yaxşılaşmasına gətirib çıxarır.
- Təhsilalanların təhsil nailiyyətinin yaxşılaşmasına mütəmadi nəzarət edilir və nəticələr qiymətləndirilir.

İnklüziv siniflərin yaradılması üçün müəllimlər daima öz potensiallarını artırmalıdırlar. PTİ-lər müəllimlərin artıq malik olduğu təcrübə və bilikləri təkmilləşdirirlər. Tədris və öyrənmə ilə bağlı məsələlərin həll yolları müəllimlərin gündəlik təcrübələrində və üzləşdikləri çətinliklərdədir. Müəllimlər arasında əməkdaşlıq fikirlərin və tədris strategiyalarının mübadiləsinə imkan verir. Müəllimlər bir-birilərindən yeni biliklər əldə edir və sinifdə üzləşdikləri çətinliklərin öhdəsindən gəlmək üçün öz səriştələrini birlikdə artırırlar.

## Bölmə 3.2 üzrə Köməkçi Vərəqələr

**“A” köməkçi vərəqəsi: Məktəbimizdə əməkdaşlıq mədəniyyətinin yaradılması**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.2 - Müəllimlər arasında əməkdaşlıq
Məşğələ 3.2.4 - Öz praktikana daxil et

# Öz praktikana daxil et

### “A” və “B” variantları: Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

**Təlimatlar:**

- Məktəbinizdə müəllimlərin görüşünü təşkil edin. Məktəb direktorunuz və ya bu təlimdə iştirak edən müəllimlərdən biri bu müzakirəni apara bilər.
- Görüşü isinişmə və ya qaynaşma məqsədli bir fəaliyyətlə başlaya bilərsiniz. Bu vaxta qədər həyata keçirdiyimiz istənilən məşğələni seçə bilərsiniz.
- Məktəbinizdə müəllimlər arasındakı əməkdaşlığa dair aşağıdakı reflektiv suallara nəzər salın.
- Qrupunuzla müzakirə etmək istədiyiniz 1 sualı seçin
- Bu sualı niyə seçdiyinizi izah edin.
- Fikrinizi bölüşün: məktəbinizdə bu artıq icra edilirmi? Onu yaxşılaşdırmaq üçün nə etmək olar? Bu, məktəbinizdə inklüziv təcrübələrin yaxşılaşdırılmasına necə töhfə verə bilər?
- Həmkarlarınızın reaksiyalarına qulaq asın və müəllimlərin məktəbinizdə birlikdə çalışması prosesinin yaxşılaşdırılmasında sizə kömək edə biləcək mühüm məqamları qeyd edin.

**Reflektiv suallar:**[ii]

- Məktəb rəhbərliyi və müəllimlər məktəbdə hər kəs üçün əməkdaşlıq mədəniyyəti yaradırmı?
- Məktəb rəhbərliyi və müəllimlər məlumat mübadiləsi və əməkdaşlığa mane olan əngəlləri müəyyən edərək onları aradan qaldırmağa səy göstərirmi?
- Adi/ümumi təhsil müəllimləri xüsusi pedaqoqlarla əməkdaşlıq edirmi?
- Adi/ümumi təhsil müəllimləri ilə xüsusi pedaqoqların fikir və təcrübə mübadiləsi aparmaq, birgə çalışmaq üçün birlikdə əməkdaşlıq etmələri üçün imkanlar varmı?
- Məktəbdə əməkdaşlar arasındakı komanda işi uşaqlar arasında əməkdaşlıq üçün model kimi çıxış edirmi?
- Əməkdaşlar bir-birinə qulaq asırmı?
- Əməkdaşlar bir-biri ilə yaxşı yola gedirmi?
- Əməkdaşlar bir-birilərinin həyatları və işləri ilə maraqlanırmı?
- Bütün əməkdaşlar, o cümlədən tədrislə məşğul olmayan əməkdaşlar birlikdə işləməkdən məmnundurmu?
- Əməkdaşlar bir-biri ilə vəzifələrindən və statuslarından asılı olmayaraq hörmətlə rəftar edirmi?
- Əməkdaşlar cins, cinsi oriyentasiya, etnik mənsubiyyət və ya sağlamlıqla bağlı məhdudiyyətlərdən asılı olmayaraq, bir-birinə hörmətlə yanaşırmı?
- Bütün əməkdaşlar onlara dəyər verildiyini və dəstək göstərildiyini hiss edirmi?

- Məktəbin ətrafındakı ərazidən gələn əməkdaşlar yerli biliklərinə qiymət verildiyini hiss edirmi?
- Əməkdaşlar müntəzəm olaraq sinif və sinifdənkənar məşğələlər barədə fikir mübadiləsi aparırmı?
- Bütün əməkdaşlar iclasda iştirak etməyə və töhfə verməyə dəvət olunurmu?
- Əməkdaşlar iclaslarında öz narazılıqlarını rahat şəkildə ifadə edə bilirmi?
- Narazılıqları aradan qaldırmaq üçün qeyri-icbari yollar varmı?
- Əməkdaşlar tədris və öyrənmə fəaliyyəti barədə rahat şəkildə məsləhət istəyə bilirmi?
- Əməkdaşlar uşaqlarla münasibətdə üzləşdikləri çətinlikləri rahat şəkildə iş yoldaşları ilə bölüşürmü?
- Əməkdaşlar iş yoldaşlarının stresli olduğunu və ya çətinliklərlə üzləşdiyini hiss edə bilirmi? Onlar dəstək təklif edirmi?
- Əməkdaşlar digər əməkdaşlar tərəfindən zorbalığa məruz qalanda bir-birinə dəstək olurmu?
- Baş müəllimlər digər şəxslərin işlərini yoxlamaq və ya idarə etməkdənsə, onlara dəstək və məsləhət verirmi?
- Gənc əməkdaşların məktəb həyatına verə biləcəyi töhfənin nisbətən yaşlı əməkdaşların verdiyi töhfədən fərqli olacağı qəbul edilirmi?
- Müəllimlərin və tədrislə məşğul olmayan əməkdaşların bütün bacarıqları, bilikləri və maraqları məlumdurmu (sadəcə vəzifə təlimatında göstərilənlər nəzərdə tutulmur)?
- Əməkdaşlar öz bilik, maraq və təcrübələrini bölüşməyə həvəsləndirilirmi?
- Əməkdaşlar bir-birilərinin tədris fəaliyyətini yaxşılaşdırmaq məqsədilə fikir və təcrübə mübadiləsi üçün görüşürlərmi?
- Əməkdaşlar bir-birinə qulaq asaraq mənfi mühakimə yürütmədən uşaqlarla bağlı narahatlıqlar barədə alternativ baxış bucaqları təqdim edirmi?
- Əməkdaşlar digər məktəblərin təcrübəsindən öyrənirmi?
- Müəllimlər dərsləri qrup şəklində birlikdə planlaşdırırmı?
- Müəllimlər bir-birinin bilik və bacarıqlarından istifadə edəcəkləri məşğələlər planlaşdırırmı?
- Sinif otağındakı yetkin yaşlı bütün şəxslərdən tam istifadəni nəzərdə tutan tədris məşğələləri planlaşdırılırmı?
- Müəllimlər bir-birindən öyrənmək üçün birgə tədrisdən istifadə edirmi?
- Müəllimlərin bir-birinin tədris fəaliyyətini yaxşılaşdırmaları üçün həmkarlar tərəfindən müşahidə və rəy vermə təşkil olunurmu?
- Müəllimlər dərslərini video lentə alaraq öz iş yoldaşları ilə gözdən keçirirlərmi?
- Müəllimlər iş yoldaşlarının rəyləri əsasında öz tədris fəaliyyətinə dəyişiklik edirmi?
- Eyni sinifdə işləyən müəllim və köməkçilər bütün uşaqların, o cümlədən əlilliyi olan uşaqların fəallığı üçün ortaq məsuliyyət daşıyırmı?
- Əməkdaşlar hansısa uşağın və ya bir qrup uşağın irəliləyişi qənaətbəxş olmadıqda problemi birgə həll etməyə çalışırmı?
- Əməkdaşlar bir-birinin fikirlərini rahat şəkildə mübahisələndirə bilirmi?
- Müəllimlər və məktəb rəhbərləri bir-birini yeni yanaşmaları və məşğələləri sınaqdan keçirməyə həvəsləndirirmi?

**Öhdəlik**

Məktəbimdə əməkdaşlıq mədəniyyətinin yaradılması üçün mən aşağıdakıları etməyi üzərimə götürürəm:

**“B” köməkçi vərəqəsi: İlkin pedaqoji təhsil alan tələbələr arasında əməkdaşlıq mədəniyyətinin yaradılması**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlıq modelləri
Məşğələ 3.2.4 - Öz praktikana daxil et

# Öz praktikana daxil et

### “C” variantı: İlkin pedaqoji təhsil alan tələbələr

**Təlimatlar:**

- İlkin pedaqoji təhsil alan tələbələrdən/eyni sinifdə olan tələbələrdən ibarət qrupu bir araya gətirin və qrup məşğələsi sessiyası təşkil edin.
- Birlikdə, köməyə ehtiyac duyduğunuz və ya üzərində çalışmalı olduğunuz hazırkı fənlərinizdən birinə aid bir mövzu seçin. Sessiya sizin qarşıdakı imtahan və ya qiymətləndirmə üçün hazırlığınız ola bilər.
- Qrup məşğələsi üçün vaxt və yer təyin edin. Ən azı bir saat vaxt ayırın.
- Müzakirəyə rəhbərlik edəcək bir əlaqələndirici təyin edin.
- Qrup məşğələsi zamanı suallar verin və fikir mübadiləsi aparın.
- Qrup məşğələsindən sonra nə hiss etdiyinizlə bağlı qeydlər aparın və növbəti sessiyada öz təəssüratlarınızı bölüşməyə hazır olun. Qrup məşğələsi faydalı oldumu? Necə?

# Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlığı yaxşılaşdırmaq üçün strategiyalar

## Ümumi məlumat

**Bölmənin məqsədləri**

- Müəllimlər üçün inklüziv təhsil sahəsində müxtəlif əməkdaşlıq yolları barədə məlumat vermək
- İştirakçıların digər müəllimlərlə işləməklə öz təcrübələrində edə biləcəkləri kiçik dəyişiklikləri müəyyənləşdirmək

**Bölmənin məzmunu**

- Giriş
- Müəllimlər arasında əməkdaşlıq modelləri
- Tapşırıq
- Yekun qeydlər

## Giriş

Bu bölmə ötən sessiyada verilən tapşırığın icrası ilə bağlı məlumatların bölüşülməsi ilə başlayır. “A” (“A” və “B” variantları üçün) və ya “B” köməkçi vərəqəsinə (“C” variantı üçün) baxın: "Əməkdaşlıq mədəniyyətinin yaradılması ilə bağlı tapşırıq üçün istiqamətləndirici suallar". Əvvəlki bölmədə biz müəllimlər arasında əməkdaşlığın inklüziv təhsilin, təlim nəticələrinin yaxşılaşmasının və ümumilikdə məktəbin təkmilləşməsinin ayrılmaz bir aspekti olmasına diqqət yetirdik. Biz Peşəkar Təlim İcmaları (PTİ), onun əsas əlamətləri və məktəblərimizdə onu necə yarada biləcəyimiz barədə öyrəndik. Bu bölmədə biz müəllimlərin birlikdə işləmək və öz səriştələrini artırmaq üçün istifadə edə biləcəkləri digər modellərlə tanış olacağıq.

## Müəllimlər arasında əməkdaşlıq

Bəzi müəllimlər əməkdaşlığa öyrəşməyib. Müəllimlər çox zaman bağlı qapılar arasında işləyir, siniflə bağlı məsələləri təkbaşına həll edir. Onlar heç də hər zaman kömək istəməklə bağlı təlimləndirilməyib. Bu bölmədə biz bu ənənəvi düşüncə və fəaliyyət tərzinin dəyişdirilə biləcəyi yollara nəzər salacağıq. Bəzən mürəkkəbləşən inklüziv təhsilin tətbiqi üçün əməkdaşlıq şərtdir.

## Yekun qeydlər

Biz bu bölmədə müəllimlərin inklüziv təhsil sahəsində əməkdaşlığın üçün müxtəlif yolları öyrəndik. Biz inklüziv təhsilin tətbiqi üçün qəbul edə biləcəyimiz effektli əməkdaşlıq təcrübələrinə dair nümunələrə baxdıq. Biz həmçinin məktəblərimizdə/universitetlərdə əməkdaşlıq mühitini yaratmaq və ya inkişaf etdirmək üçün ata biləcəyimiz addımları müəyyən etdik. Biz növbəti bölmənin əvvəlində bu tapşırığın necə icra olunduğunu müzakirə edəcəyik.

## Bölmə 3.3 üzrə Köməkçi Vərəqələr

**"A" köməkçi vərəqəsi: Məktəbimizdə əməkdaşlıq mədəniyyətinin yaradılması**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlıq modelləri
Məşğələ 3.3.1 - Bölmə 3.2-də verilən tapşırığın icrası ilə bağlı məlumatların verilməsi

# Öz praktikana daxil et: Əməkdaşlıq mədəniyyətinin yaradılması

Aşağıdakı suallarla bağlı düşüncələrinizi qrupunuzda bölüşün. Bu tapşırıq üçün 15 dəqiqəniz var.

**"A" və "B" variantları: Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar**

1. Məktəbinizdə əməkdaşlıq mədəniyyəti yaratmağa başlamaq üçün öhdənizə götürdüyünüz tədbiri bölüşün.
2. Nə uğurlu alındı?
3. Nə uğurlu alınmadı?
4. Sizcə sizə hansı növ dəstək lazımdır?

**"C" variantı: İlkin pedaqoji təhsil alan tələbələr**

1. Qrup məşğələnizdə nə uğurlu alındı?
2. Nə uğurlu alınmadı?
3. Gələn dəfə nəyi daha yaxşı edəcəksiniz?
4. Sizcə bu təcrübədən öyrəndiyiniz hansı element gələcəkdə sizi müəllimlərlə əməkdaşlığa hazırlamaq baxımından faydalıdır?

**“B” köməkçi vərəqəsi: İlkin pedaqoji təhsil alan tələbələr arasında əməkdaşlıq mədəniyyətinin yaradılması**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlıq modelləri
Məşğələ 3.3.1 - Bölmə 3.2-də verilən tapşırığın icrası ilə bağlı məlumatların verilməsi

# Öz praktikana daxil et: Əməkdaşlıq mədəniyyətinin yaradılması

Aşağıdakı suallarla bağlı düşüncələrinizi qrupunuzda bölüşün. Bu tapşırıq üçün 15 dəqiqəniz var.

**“C” variantı: İlkin pedaqoji təhsil alan tələbələr**

1. Qrup məşğələnizdə nə uğurlu alındı?
2. Nə uğurlu alınmadı?
3. Gələn dəfə nəyi daha yaxşı edəcəksiniz?
4. Sizcə bu təcrübədən öyrəndiyiniz hansı element gələcəkdə sizi müəllimlərlə əməkdaşlığa hazırlamaq baxımından faydalıdır?

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlıq modelləri
Məşğələ 3.3.2 - Əməkdaşlıq praktikasına dair nümunələr

# Müəllimlər arasında əməkdaşlıq modelləri

*Bu modellər müəllimlər arasındakı əməkdaşlığa şərait yaradır və davamlı peşəkar inkişafa töhfə verir. Bu modellər aşağıdakı səbəblərdən uğurludur:*

- Onlar müəllimə köklənir, müəllimlərin öz praktikaları baxımından hansı mərhələdə olmalarının müəyyən edilməsi ilə başlayır. Onların əməkdaşlıq və peşəkar inkişafa yönəlməsi müəllimlərin öz səriştələrini yaxşılaşdırmaları üçün fərdi ehtiyaclarına uyğundur. Onlar modelləşdirmə, nəzarət, kouçinq və mentorluq üçün imkanlar yaradır.
- Onlar peşəkar təlim icmalarının yaradılmasına və öyrənmə ənənəsinin qorunub saxlanılmasına töhfə verir.
- Onlar tədrisin əsas prinsiplərinə - təhsilalanların necə öyrəndiyinə, dərslərin təhsilalanların öyrənməsi üzərində qurulmasına və dərsin keçirilməsi üçün ən yaxşı yanaşmalara yönəlir.
- Onlar aktivdir və fəaliyyətə yönəlir.
- Onlar yüksək səviyyədə planlaşdırılan və təkrarlanan proseslərdir. Onlar müəllimlər arasında əməkdaşlığı qoruyub saxlamaqla davamlı peşəkar inkişafla nəticələnir.
- Onlar məktəb və iş əsaslıdır ki, bu da dərhal rəy almağa və yeni bilik və bacarıqları tətbiq etməyə imkan verir.

**Müəllimlər arasında əməkdaşlıq modelləri**

1. **Birgə dərs tərtibatı**
   Bu modelə bəzən kurrikulumun birgə planlaşdırılması, birgə dərs planlaması, dərs tədqiqi və s. də deyilir.

   “Dərs tədqiqi modelində müəllimlər bir dərsi birlikdə planlaşdırır və ya təkmilləşdirir, onu sinifdə sınaqdan keçirir, müşahidə edir, dəyişikliklər edir və dərsin şagirdin öyrənməsinə təsirini müəyyən etmək üçün məlumatlar toplayırlar. Bu, adətən bir neçə ay müddətində baş verir. Birgə dərs tərtibatı zamanı bir müəllim (baş müəllim, kouç) arzuolunan müəyyən yanaşma əsasında (məsələn, didaktik metod və ya oxunulanların başa düşülməsi ilə bağlı strategiya) dərs və ya silsilə dərslərin planlaşdırılmasında bir müəllim və ya bir qrup müəllimlə işləyir.

   Dərsin tərtibatı tədrisin mərkəzi elementlərini - məzmun, kurrikulum, təlimat, qiymətləndirmə və qarşılılıqlı fəaliyyəti əhatə edir. Dərsin peşəkar inkişaf ekspertinin bələdçiliyi altında bir qrup həmkarla birlikdə planlaşdırılması çox zəngin təcrübə ola bilər. O, tədris və öyrənmə ilə bağlı dərin söhbətlərə şərait yaradır, nəzəriyyəni praktika ilə əlaqələndirir. O, praktiki fəaliyyəti və refleksiyanı təşviq edir. O, müəllimlərin diqqətini tədrislə bağlı həm böyük məsələlərə, həm də

əsas konkret məsələlərə (materialların hazırlanması, qruplaşdırma, təlim nəticələrinin planlaşdırılması, nəticələrin təlimat və qiymətləndirmə ilə uzlaşdırılması və s.) çəkir. Ən əsası, o, müəllimlərə seminarda və ya sinifdə əldə edilən bilikləri müəyyən etməyə və onu təcrübəyə tətbiq etməyə imkan verir."

2. **Müşahidə və rəy**
   "Bu modeldə peşəkar inkişaf təmin edən tərəf - məktəbin baş müəllimi, mütəxəssis və ya çox təcrübəli bir müəllim həmkar müəllimləri dərslərində müşahidə apararaq, onların təlimat fəaliyyətlərini qiymətləndirir və planlı rəy verir. Bu model seminarlardan sonra və ya həmkarlar arasında kouçinqin bir forması kimi tədris ili ərzində vaxtaşırı dəstək tədbiri kimi istifadə edə bilər.

3. **Açıq dərs**
   "Açıq dərsdə əsas diqqət müəllimin davranışına yetirilir. Müşahidədən sonra planlı müzakirə və informasiya mübadiləsi olduqda, daha bacarıqlı həmkarlar fəaliyyətdə olarkən onları izlədikdə, bu, hər iki tərəf - həm dərsi keçən, həm də müşahidə edən müəllim üçün faydalı olur.

4. **Tədqiqat qrupları**
   "Müəllimlər vacib məsələlərlə bağlı olaraq öz həmkarları ilə formal müzakirə və qarşılıqlı təmaslardan faydalanırlar. Tədqiqat qruplarında müəllimlər bir böyük qrup və ya kiçik qruplar şəklində əməkdaşlıq edərək, ümumi bir problemi həll etmək və ya ümumi bir məqsədə çatmaq üçün plan hazırlamaq və tətbiq etmək məqsədilə müəyyən bir məsələni tədqiq edirlər. Tədqiqat - (ixtisaslı bir təlimçinin rəhbərliyi altında aparılan oxuma, müzakirə, yazı və refleksiya) tədqiqat qrupunun əsas komponentidir. Tədqiqat prosesində onlar çap formasında olan resurslardan, sinif otağı materiallarından (məsələn, şagirdlərin hazırladığı işlər) və problemə yanaşmalarının bir hissəsi kimi öz təcrübələrindən istifadə edə bilərlər."

5. **Birgə tədris**
   Birgə tədris zaman iki müəllim və ya bir müəllim və onun kouçu birlikdə dərs keçirlər (dərslərin birgə planlaşdırılması prosesi çərçivəsində hazırlanan dərslər kimi).
   Birgə tədrisin çoxsaylı modelləri mövcuddur. Məsələn, birgə dərs keçən müəllimlər öz vəzifələrini zaman və ya məkan baxımdan bölə, paralel və ya növbəli şəkildə keçə bilərlər. Kouç daha kompleks aspektləri keçərkən, müəllimlər müşahidə edə bilərlər.
   Alternativ olaraq, müəllim dərsin daha çətin hissələrini keçə və bu zaman kouç müşahidə apara bilər.

Birgə tədrisin də öz çətinlikləri var. Birgə dərs keçən müəllimlər fərqli iş üslublarına və şəxsiyyətlərə malik ola bilərlər və hər ikisi dərsə nəzarətlə bağlı bir-birinə müəyyən dərəcədə güzəştə getməlidir. Birgə tədris texniki təchizat və təşkilatçılıq baxımından daha çox səy tələb edir. Siz həmişəki müəllim olmadığınıza görə, bu, sizi tanımayan və heç bir münasibətiniz olmayan şagirdlər üçün son dərəcə vahiməli ola bilər.

Bu çətinliklərlə yanaşı, birgə tədrisin faydaları çoxdur. Müəllimlərin seminarda və ya kursda öyrəndiklərini tətbiq etmək üçün bundan daha yaxşı yol yoxdur. Birgə tədris müəllimlərə sinfi idarəetmə baxımından kömək edir və real vaxt rejimində modelləşdirmə, plan və dəstək təmin edir. Bu modelin yüksək kollegial və əməkdaşlıq xarakteri gələcəkdə yeni təcrübələrin tətbiqinin vahiməliliyini azaldır.

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.3 - Müəllimlər arasında əməkdaşlıq modelləri
Məşğələ 3.3.4 - Tapşırıq: Eşidilməyən səslər - Valideynlər

# Eşidilməyən səslər: Valideynlərin baxış bucaqlarını öyrənmək

### “A”/”B” variantı: Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

- Valideyn iclası təşkil edin və bir qrup valideyni, yaxud bütün şagirdlərin valideynlərini iştirak etməyə dəvət edin.

### “C” variantı: İlkin pedaqoji təhsil alan tələbələr

- Qonşuluğunuzda məktəb yaşlı uşaqları olan valideynlərdən ibarət kiçik bir qrup toplayın. Onlarla fokus qrupu müzakirəsi aparmaq üçün icazə istəyin. Əgər onları eyni vaxtda toplamaq mümkün olmazsa, aşağıdakı alətlərdən istifadə edərək 2-3 valideynlə söhbət aparın.

**Başlamaq üçün bəzi potensial mövzular:**

- İclasda və ya müsahibədə görüşün məqsədinin bütün şagirdlərin öyrənməsinə şərait yaradan məktəb mühiti yaradılmasının olduğunu bildirin. Sorğu anketinin necə qurulduğunu və necə doldurulmalı olduğunu izah edin. Bütün valideynlərin fikirlərinin öyrənilməsinin vacib olduğunu vurğulayın.
- Müzakirənin əvvəlində valideynləri əmin edin ki, cavablar məxfi saxlanılır. Müzakirəni sənədləşdirməyiniz üçün icazə istəyin. Əgər onlar icazə versələr, sənədləşdirin. İcazə verilməsə, sessiyadan sonra qeydlər götürün.

**Müzakirəyə başlamaq üçün bəzi suallar:**

- Uşaqlar bu məktəbə gəlməkdən məmnundurmu? Onlar ən çox nəyi xoşlayır?
- Sizcə onlar irəliləyiş əldə edirlər? Bunu hardan bilirsiniz?
- Sizcə onların məktəbdə öyrəndiyi ən mühüm şey nədir?
- Sizcə məktəbdəki müəllimlər sizin özünüzü məktəb icmasının bir hissəsi olduğunuzu hiss etdirirmi və sizinlə yaxşı kommunikasiyada olurmu? Onlar bunu yaxşılaşdırmaq üçün nə edə bilərlər?
- Uşağınızın məktəbdə daha yaxşı öyrənməsi üçün nə etmək olar?
- Uşağınızın məktəbdə özünü daha xoşbəxt hiss etməsi üçün nə etmək olar?

**Müsahibədən/müzakirədən sonra:**

- Valideynlərin cavablarında qanunauyğunluqlar axtarın. Bu, onların inklüziv təhsillə bağlı baxış bucaqları barədə sizə nə deyir? Müəllimlərlə əməkdaşlıq və ya münasibət baxımından sizə nə deyir? Məktəblə əməkdaşlıq və ya münasibət baxımından sizə nə deyir?
- Hər cavabda üstünlük verilən seçimlərin rastgəlmə tezliyini saymaqla (məs. 1-ci sualla neçə nəfər razılaşmayıb, neçə nəfər müəyyən dərəcədə razılaşıb, neçə nəfər tam razılaşır və s.) sorğu anketinə verilən cavabları ümumiləşdirin.

**Valideynlər üçün sorğu anketi**

**Göstəricilər**

Qadın ☐ Kişi ☐

| № | *Suallar* | Razı deyiləm | Müəyyən dərəcədə razıyam | Razıyam |
|---|---|---|---|---|
| 1 | Mən bu məktəbin hamımıza məxsus olduğunu hiss edə bilirəm | | | |
| 2 | Məktəb və övladım barədə mənə kifayət qədər məlumat verilir | | | |
| 3 | Bu məktəbdə müəllimlər uşaqları bir-birinə dəstək göstərməyə həvəsləndirir | | | |
| 4 | Bu məktəbdəki müəllimlər mənə evdə uşaqlarımın öyrənməsinə necə kömək edə biləcəyimlə bağlı məsləhət verirlər | | | |
| 5 | Müəllimlər uşağımı necə öyrətmələri barədə mənimlə məsləhətləşirlər | | | |
| 6 | Bu məktəbdəki müəllimlər mənim demək istədiklərimi dinləyirlər | | | |
| 7 | Mən övladlarıma digər uşaqlarla eyni dərəcədə diqqət yetirildiyini hiss edirəm | | | |
| 8 | Hesab edirəm ki, müəllimlər uşaqlarımın fikir və şərhlərinə qulaq asılar | | | |
| 9 | Uşaqlarım məktəbə getməkdən məmnundur | | | |
| 10 | Məncə məktəb uşaqların məktəb binasının bütün hissələrindən istifadə edə bilməsi üçün lazımi qurğuları təmin edir, məsələn, sinif otaqları, tualetlər, oyun meydançaları və s. | | | |
| 11 | Mən uşaqlarımla məktəbdə öyrəndikləri şeylər barədə danışmağı xoşlayıram | | | |
| 12 | Uşaqlarım məktəbdəki bütün dərslərini xoşlayırlar | | | |
| 13 | Məncə müəllimlər övladım üçün adekvat təlim materialları təmin edirlər | | | |
| 14 | Məncə uşaqlarım yaxşı irəliləyiş əldə edir | | | |
| 15 | Övladlarım və digər şagirdlər birlikdə öyrənirlər | | | |
| 16 | Sevinirəm ki, uşaqlarım və digər uşaqlar heç bir ayrı-seçkilik olmadan birlikdə öyrənirlər | | | |
| 17 | Məktəb övladlarımı təmizliyi təmin etməyə həvəsləndirir/dəstək göstərir. | | | |

Qaldırmaq istədiyiniz başqa məsələ və ya başqa təklifləriniz varmı?

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

--------------------------------------------------------------------------------

# Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq

## Ümumi məlumat

**Bölmənin məqsədləri:**

- Keyfiyyətli və inklüziv təhsilin təşviqində valideynlərin və icmanın fəallığının həlledici rol oynadığını anlamaq
- Valideynlərlə və icma ilə əməkdaşlıq mühitinin qurulmasında müəllimlərin rolunu öyrənmək
- Müəllimlərin inklüziv təhsilin tətbiqi ilə bağlı valideynlər və icma ilə əməkdaşlıq üçün istifadə edə biləcəyi strategiyaları təqdim etmək

**Bölmənin məzmunu:**

- Giriş
- Valideynlərin və icmanın cəlb edilməsi, niyə və necə?
- Valideynlər və icma ilə əməkdaşlıq strategiyaları və müəllimlərin rolu
- Tapşırıq: İcmanın sxematik təhlili
- Yekun qeydlər

## Giriş

Valideynlərin və icmanın cəlb olunması keyfiyyətli təhsilin, ələlxüsus da inklüziv təhsilin tətbiqinin əsas prinsiplərindən biridir. Ailələr və icma əlilliyi olan uşaqların xüsusilə də erkən yaşlarında inkişafında mühüm rol oynayır.[v]

Əvvəlki proqramlar sayəsində bilirik ki, inklüziv məktəblərin inkişafı təcrid olunmuş şəkildə baş vermir və müəllim həmkarımızla əməkdaşlıq etmək vacibdir. Lakin əlilliyi olan uşaqların təhsili üçün sadəcə müəllimlər məsuliyyət daşımır. Biz inklüziv təhsilə sistemli yanaşma təmin etmək üçün əlilliyi olan və olmayan uşaqların valideynləri və ya qəyyumlarının və daha geniş icmanın dəstəyinə ehtiyac duyuruq. Buraya yaşadıqları ərazi, icma rəhbərləri, yerli hökumət, vətəndaş cəmiyyəti təşkilatları və məktəbin yerləşdiyi inzibati ərazidə yaşayanlar daxildir.[vi] Bu qruplarla birlikdə işləmək inklüziv məktəblərin təkmilləşməsinə böyük təsir göstərir.

Bu bölmədə bütün təhsilalanların təhsilə inteqrasiyasının təmin edilməsi prosesinə valideynlərin və icmanın niyə cəlb olunduğundan bəhs edilir. Bu sessiyanın məqsədi valideynlərin və icmanın siniflərimizin inklüziv olmasında oynadığı rolu müzakirə etmək və bizə onlarla əlaqələr və əməkdaşlıq münasibəti qurmaqda kömək edəcək praktiki strategiyaları təqdim etməkdir.

## Valideynlərin və icmanın cəlb edilməsi, niyə və necə?

İcma şagirdlərimizin valideynləri və qəyyumları, onların digər ailə üzvləri, habelə məktəb yaxınlığında yaşayan qonşulardan ibarətdir. İcmaya həmçinin təqaüdə çıxmış baş müəllimlər, şagirdlərin nənə-babaları və məktəbin yerləşdiyi inzibati ərazidə yaşayan hər kəs daxildir[vii]

## Valideynlər və icma ilə əməkdaşlıq strategiyaları və müəllimlərin rolu

Bu məşğələnin məqsədi müəllimlərin valideynləri və icmanı inklüziv təhsilin tətbiqinə cəlb etmək üçün istifadə edə biləcəyi strategiyaları təqdim etməkdir. Bu məşğələ reflektiv tapşırıqlar vasitəsilə müəllimlərin valideynlər və icma ilə əməkdaşlıq edə biləcəyi yollarla bağlı praktiki addımları göstərir.

## Tapşırıq: İcmanın sxematik təhlili

Bu məşğələ müəllimlərə və inklüziv təhsil sahəsindəki digər tərəfdaşlara icmada kimlərin inklüziv təhsilin tətbiqinə necə töhfə verə biləcəyini müəyyən etməkdə kömək edir.

## Yekun qeydlər

Bizim müəllim olaraq ən vacib vəzifələrimizdən biri  şagirdlərimizin valideynləri və yaşadıqları icma ilə ünsiyyət kanalları qurmaq və onlarla işləməkdir. Biz onları uşağın təhsilinə cəlb etməklə, öyrənmək üçün potensialı artırır və siniflərimizin inklüziv olması üçün zəruri olan dəstək sistemləri yaradırıq. Bu bölmədə biz valideynlər və icma ilə əməkdaşlığın əhəmiyyətini və bu mübadilədə oynadığımız rolu öyrəndik. Bizə həmçinin əməkdaşlıq və şagirdlərin inkişafı üçün əlaqələrin qurulması ilə bağlı bəzi strategiyalar təqdim olundu.

## Bölmə 3.4 üzrə Köməkçi Vərəqələr

### "A" köməkçi vərəqəsi: Nəticələri bölüşmək - Valideynlərin eşidilməyən səsləri

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Digər peşə sahibləri ilə əməkdaşlıq
Məşğələ 3.4.1 - İnklüziv təhsildə tərəfdaşlar

**İstiqamətləndirici suallar:**

- Tapşırıq sizdə hansı hissləri oyatdı?
- Aşağıdakılar barədə nə aşkar etdiniz?
  - Müəllimlər və valideynlər arasındakı əməkdaşlıq
  - Valideynlərin inklüziv təhsilə yanaşması

**“B” köməkçi vərəqəsi: Valideynlər və icma ilə əməkdaşlıq, niyə və necə?**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq
Bölmə 3.4.2 - Valideynlər və icmanın cəlb olunması

## Valideynlərlə və icma ilə əməkdaşlıq[viii]

1. **Ailənin cəlb olunması əlilliyi olan uşaqların bütün həyatı boyu, xüsusilə də erkən yaşlarında vacibdir.**
   Uşağı ən yaxşı tanıyan şəxslər valideynlər və ailə üzvləridir. Onlar uşağın şəxsiyyətini, davranışını, öyrənmə tərzini, maraqlarını və ehtiyaclarını bilirlər. Valideynlərlə məsləhətləşmə müəllimlərə uşaq barədə hərtərəfli məlumat toplamağa və tədris və öyrənmə prosesini daha yaxşı qurmağa kömək edir. Ailələr və valideynlər öz övladlarına dair istənilən qərarvermə prosesinin mərkəzində olmalıdır. Onlar həmçinin uşağın evdə davamlı inkişafına və öyrənməsinə dəstək göstərilməsində mühüm rol oynayırlar. Valideynlərin sinif otağında kömək etməsi də valideynlərin və müəllimlərin əməkdaşlıq etməsi üçün bir yol ola bilər.

2. **Əlilliyi olmayan uşaqların valideynləri təhsilə çıxışa və iştiraka mane olan əngəlləri aradan qaldırmağa kömək edə bilərlər**
   Əlilliyi olan uşaqların valideynlərinin inklüziv təhsildə iştirakı və onların bu prosesə münasibəti ümumilikdə məktəb mədəniyyətinə təsir göstərir. Çox zaman əlilliyi olmayan uşaqların valideynləri övladlarının əlilliyi olan uşaqlarla birlikdə təhsil alması ideyasına qarşı çıxırlar. Əlilliyi olmayan uşaqların valideynləri ilə işləyərək, övladlarının məktəbdə və ya sinif otağında əlilliyi olan uşaqlarla birgə təhsil almasının onlara mənfi təsir göstərməyəcəyini izah etmək lazımdır.

3. **Uşaqlar məhz ümumi icma kontekstində təhsil alır, yaşayır və öyrəndiklərini məhz bu kontekstdə tətbiq edirlər.**
   Təhsilalanın əhatə olunduğu kontekst barədə məlumatlılıq müəllimləri, məsələn dərsin planlaşdırılmasında istifadə edə biləcəkləri zəngin informasiya ilə təmin edir.

4. **Məktəblər icmaların malik olduğu dəyərli resurslardan istifadə edərək əlilliyi olan uşaqlara adekvat dəstək təmin edə bilərlər.**
   İcma inklüzivliyin təşviqinə bir çox yollarla kömək edə bilər. Bu nümunələrdən bəziləri aşağıdakılardır:
   - Yerli hökumət, vətəndaş cəmiyyəti qrupları əlilliyi olan uşaqlara zəruri dəstək təmin edə bilərlər (məsələn, köməkçi qurğular, səhiyyə və sosial müdafiə kimi dəstək xidmətləri ilə əlaqələndirmə)
   - İcma inklüziv təhsil gündəliyini siyasət təşviqatı, icma arasında maarifləndirmənin aparılması vasitəsilə aktuallaşdırmağa kömək edə bilər.
   - Gənclər təşkilatları əlilliyi olan uşaqların məktəbdən kənarda daha geniş icmaya inteqrasiyasını gücləndirən fəaliyyətlər həyata keçirə bilərlər.

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq
Məşğələ 3.4.3 - Valideynlər və icma ilə əməkdaşlıq strategiyaları və müəllimlərin rolu

## Valideynlərlə və icma ilə əməkdaşlıq strategiyaları

- **Valideynlər və icma üzvləri ilə əməkdaşlıq üçün əlverişli və müsbət mühitin yaradılması.** Əvvəldən inam mühiti və müsbət atmosferin yaradılması uğurlu əməkdaşlıq münasibəti üçün vacibdir. Valideynlər və icma üzvləri üçün münbit mühit yaratmağa başlamaq üçün bu proqram müddətində təqdim etdiyimiz bəzi məşğələlərdən istifadə edə bilərsiniz.

- **Valideynləri təhsilin planlaşdırılmasında fəal iştirakçılara çevirmək üçün onlarla işləmək. Vaxtaşırı valideyn-müəllim görüşləri keçirmək və uşağın irəliləyişi barədə mütəmadi olaraq məlumatlar vermək.** Valideynlər çox vaxt müəllimlərə sual yağdıra və bəzən isə şikayətlər edə bilərlər. Valideynlərin cəlb olunması üçün faydalı tövsiyələrdən biri “Onlar soruşmadan cavab vermək”dir. Bunu etmək üçün siz valideynlərə ardıcıl və stabil əsasda yenilənmiş məlumatlar göndərə bilərsiniz. Uşağı bu informasiya mübadiləsinə cəlb etməyi unutmayın.

- **Əlilliyi olan uşaqların inteqrasiyası və hüquqları barədə məlumatları bölüşmək üçün əlilliyi olmayan uşaqların valideynləri ilə məlumatlandırma sessiyası keçirmək.** Onların əlilliyi olan uşaqların ailələrini başa düşmələrinə kömək etmək üçün interaktiv məşğələ keçirin. Bunun üçün 2-ci Proqramda istifadə etdiyimiz məşğələ və materialları uyğunlaşdırıb istifadə edə bilərsiniz.

- **İcma üzvləri arasında onların məktəbin təkmilləşdirilməsi prosesinin sahibləri olduğu hissini yaratmaq.** Məktəbin təkmilləşdirilməsinin planlaşdırılmasına, məktəb dəyərlərinin formalaşdırılmasına valideynləri və icmanı cəlb edin.

- **Əlilliyi müzakirə etmək üçün maarifləndirmə işi aparmaq. Yerli dövlət strukturlarını, valideyn assosiasiyalarını və vətəndaş cəmiyyəti nümayəndələrini dəvət etmək.** İcmadan iştiraka və inklüzivliyə mane olan əngəlləri aradan qaldırmaq üçün tövsiyələr alın

- **İcma və məktəb tədbirləri vasitəsilə əməkdaşlıq üçün müntəzəm imkanlar yaratmaq.** Mütəmadi görüşlər keçirməklə birlikdə işləmək ənənəsini qoruyun. Qarşıya çıxan məsələləri müzakirə edin, əldə olunan irəliləyişi qeyd edin, müəllimlərin və icmanın birlikdə işləyə biləcəyi yolları müəyyən edin

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq
Bölmə 3.4.2 - Valideynlər və icmanın cəlb olunması

## Valideynlərin və icmanın cəlb olunmasında müəllimlərin rolu

Müəllimlər və inklüziv təhsilin təşviqatçıları olaraq, bizdən aşağıdakılar gözlənilir:

- Evə, yəni valideyn və ya qəyyumlara övladlarının təhsildə irəliləyişi və nailiyyəti barədə mütəmadi məlumatlar vermək;
- Hansı uşaqların məktəbə getmədiyini və niyə getmədiyini öyrənmək və onları məktəbə gətirmək üçün yollar düşünmək məqsədilə icma rəhbərləri ilə işləmək;
- İnklüziv təhsilin dəyərini və məqsədini şagirdlərin valideynlərinə izah etmək;
- Şagirdləri kurrikulum çərçivəsində sahələrə səfərlər və ya xüsusi fəaliyyətlər və tədbirlər vasitəsilə icma ilə qarşılıqlı təmasa hazırlamaq;
- Valideynləri və icma üzvlərini sinifə cəlb olunmağa dəvət etmək

## "E" köməkçi vərəqəsi: İcmanın sxematik təhlili aləti

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Valideynlərlə və icma ilə əməkdaşlıq
Məşğələ 3.4.3 - Tapşırıq: İcmanın sxematik təhlili

### İcmanın sxematik təhlili aləti

Bu alət müəllimlərə valideynlərin və icmanın inklüziv təhsildə iştirakını sxematik təhlil etmək və boşluqların harada olduğunu müəyyən etməkdə kömək edəcək. Bu, həmçinin, müəllimlərə əməkdaşlığın yaxşılaşdırılması üçün praktiki tədbirlər barədə düşünmək imkanı verir.

### "A"/"B" variantı: Ümumi təhsil müəllimləri və xüsusi pedaqoqlar

- Bu tapşırığı növbəti müəllim iclasında müəllim həmkarlarınızla birgə icra edə bilərsiniz. Mümkün olarsa, məktəb direktorunu da cəlb edin. Birlikdə məktəbin icma ilə əməkdaşlığı üçün mövcud yollar və inklüziv təhsil üçün əməkdaşlığı gücləndirmək məqsədilə mümkün strategiyalar barədə düşünün.

### "C" variantı: İlkin pedaqoji təhsil alan tələbələr və xüsusi pedaqoqlar

- Bu tapşırığı fərdi şəkildə həyata keçirə bilərsiniz. Həmçinin tərəfdaş taparaq birlikdə icra edə bilərsiniz. Yaşadığınız ərazidəki məktəb direktoru və ya müəllim/bir qrup müəllim ilə müsahibə aparın.

**1-ci hissə**

| **İcmanızda KİM[1] məktəbdə fəal iştirak edir/cəlb olunur?** | **Onlar HANSI YOLLARLA** inklüziv təhsilə dəstək verir? | **ƏMƏKDAŞLIĞI YAXŞILAŞDIRMAQ ÜÇÜN NƏ ETMƏK OLAR?** |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

**2-ci hissə**

| **İcmanızda KİM məktəbdə fəal iştirak etməlidir?** (Məktəbinizdə fəal olmayanları sadalayın). | **Onlar NİYƏ** cəlb olunmalıdır? | Onları inklüziv məktəbin qurulmasına dəstək göstərməyə həvəsləndirmək üçün NƏ edə bilərsiniz? |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

# Bölmə 3.5 - Digər peşə sahibləri ilə əməkdaşlıq

## Ümumi məlumat

Bölmənin məqsədləri

- Məktəb icması daxilindəki digər peşə sahiblərinin (yardımçı mütəxəssislər kimi) əlilliyi olan uşaqların inklüziv mühitdə effektiv təhsil almasında oynadığı rolunu öyrənmək
- Digər peşə sahibləri ilə əməkdaşlıq yollarını təqdim etmək

**Bölmənin məzmunu**

- Giriş
- İnklüziv təhsildə tərəfdaşlar
- Yekun qeydlər

## Giriş

Dünyadakı əksər təhsil sistemləri əlilliyi olan uşaqlar üçün seqreqasiyalı təhsil sistemindən adi siniflərdə tam və faydalı inklüziv təhsilə keçidlə bağlı çətinliklərlə üzləşirlər. 2-ci Proqramda biz öyrəndik ki, uşaqların seqreqasiyalı mühitdə təhsilə cəlb edilməsi əlilliyin tibbi modelini möhkəmləndirir. Əlilliyi olan uşaqların inklüziv təhsilini uğurla tətbiq etmək üçün 3-cü Proqramda müəllimlər arasında əməkdaşlığın, valideynlərlə və icma ilə işin vacibliyi vurğulandı.

## İnklüziv təhsildə tərəfdaşlar

Vurğuladığımız kimi, inklüziv təhsil təcrid olunmuş halda baş vermir. Biz siniflərimizin və məktəblərimizin uğurla inklüzivləşdirilməsini istəyiriksə, səylərimiz digər sektorlarla əlaqələndirilməlidir. Məsələn[ix]:

1. Səhiyyə sektoru - zəif sağlamlığın və qidalanmanın iştiraka və öyrənməyə təsiri. Azərbaycanda əlilliyi olan uşaqların adi məktəblərdə təhsil alması Psixoloji-Tibbi-Pedaqoji Komissiyanın apardığı qiymətləndirmədən (buraya sağlamlığın qiymətləndirilməsi daxildir) asılıdır.
2. Sosial müdafiə - əlilliyi olan uşaqlar çox zaman sosial müdafiə xidmətlərindən istifadə etmək hüququna malik olur. Uşaqlar hərəkətlilik, səhiyyə xidməti, reabilitasiya və iştiraka şərait yaradan digər dəstək tədbirləri üçün müavinətlər və maliyyə yardımı ayrılır.
3. Su və kanalizasiya - uşaqların sanitar qovşaqlara çıxışı olmasa, onlar təlim prosesində iştirak edə bilməzlər.
4. Nəqliyyat və infrastruktur - məktəbə getmək mümkün olmazsa, uşaqlar təhsil ala bilməzlər.

## Yekun qeydlər

Əlilliyi olan uşaqların təhsilinə vahid prizmadan yanaşma müəllim və məktəb rəhbərliyindən başqa digər peşə sahibləri ilə işləməyi şərtləndirir. Bu peşə sahibləri təhsil sektorundan kənarda ola bilərlər. Bizim

istifadə edə biləcəyimiz resurslardan xəbərdar olmağımız vacibdir. Uşağın ehtiyaclarına nəzər salınması onun hansı dəstəyə ehtiyacı olduğunu müəyyən etmək baxımından yaxşı başlanğıc nöqtədir. Valideynlərlə və ailə, habelə digər müəllimlər və peşə sahibləri ilə məsləhətləşmək uşağın inkişafına vahid prizmadan yanaşmağımızı təmin edir.

## Ümumiləşdirmə və yekun qeydlər

Əlilliyi olan uşaqların təhsilinə vahid prizmadan yanaşma müəllim və məktəb rəhbərliyindən başqa digər peşə sahibləri ilə işləməyi şərtləndirir. Bu peşə sahibləri təhsil sektorundan kənarda ola bilərlər. Bizim istifadə edə biləcəyimiz resurslardan xəbərdar olmağımız vacibdir. Uşağın ehtiyaclarına nəzər salınması onun hansı dəstəyə ehtiyacı olduğunu müəyyən etmək baxımından yaxşı başlanğıc nöqtədir. Valideynlərlə və ailə, habelə digər müəllimlər və peşə sahibləri ilə məsləhətləşmək uşağın inkişafına vahid prizmadan yanaşmağımızı təmin edir.

3-cü Proqram burada bitir. Biz əməkdaşlığın müxtəlif növləri və inklüziv təhsilin tətbiqində əsas iştirakçılar olan maraqlı tərəflər haqqında öyrəndik. Növbəti proqram “sinifdə inklüzivliyi necə təmin edirik”, “bu proses necə olur” kimi suallarınızın əksəriyyətini əhatə edəcəyik. 4-cü Proqram inklüziv təcrübələrin yaradılmasından bəhs edir.

## Bölmə 3.5 üzrə Köməkçi Vərəqələr

**“A” köməkçi vərəqəsi: İnklüziv təhsildə tərəfdaşlar**

Proqram 3 - Əməkdaşlıq
Bölmə 3.4 - Digər peşə sahibləri ilə əməkdaşlıq
Məşğələ 3.5.1 - İnklüziv təhsildə tərəfdaşlar

**Təlimatlar:**

- Aşağıdakı nümunəvi halı oxuyun.
- Tərəfdaş tapın və aşağıdakıları müzakirə edin:
    - Sizcə Konorun adi sinifdə öyrənə bilməsi üçün ona hansı növ dəstək lazımdır?
    - Bir müəllim kimi siz əlilliyi olan uşaqlara dəstək göstərə biləcək digər peşə sahibləri ilə necə əməkdaşlıq edəcəksiniz?
    - Azərbaycanda inklüziv təhsilin tətbiqində önəmli rol oynayan digər peşə sahibləri ağlınıza gəlirmi? Onlar niyə önəmlidir?

**Konorun xarakteristikası**[x]

Konorun 11 yaşı var. Ona nitq, dil və ünsiyyət çətinlikləri və autistik spektrum pozuntularından ibarət ikili diaqnoz qoyulub. O, çox qayğıkeşdir, mahnı oxumağı və dramları sevir. Onun şəxsiyyəti onu böyüklərə sevdirir və bəzi yaxşı dostluq münasibətləri qurub.

BAŞQALARI MƏNİM ƏN ÇOX HANSI CƏHƏTLƏRİMİ XOŞLAYIR

- Başqalarına qarşı çox diqqətcil olmağım və onlar xəstələnəndə və ya kədərlənəndə narahat olmağım
- Yaxşı mahnı oxumağım, yaxşı dost, gülməli, köməksevər və çox yaxşı oğlan olmağım
- Ameliya üçün yaxşı böyük qardaş olmağım və onu təhlükələrdən qorumağım
- Sevgi dolu olmağım
- Yaxşı yumor hissim
- Həyasızlığım

## MƏNİM ÜÇÜN ÖNƏMLİ OLAN ŞEYLƏR

- Əksər günlərdə "Skylanders" oynamaq. Bu, Playstation 3-də oynanılan oyundur. "Skylander"lər "Skylands" ölkəsini Xaos və Arkeyans kimi qaranlıq qüvvələrdən qoruyan qəhrəmanlardır.
- Meyvə kimi sağlam qidalar qəbul etmək. Ən çox almaları xoşlayıram.
- Leqo qurmaq. Hər dəfə leqolarla nəsə yeni bir şey qururam. Həftəsonu və məktəb tətillərində leqo ilə oynamağı xoşlayıram.
- Balaca bacımla oynamağı xoşlayıram. O, bəzən məni öpür və qucaqlayır. Anamı qucaqlamağı da xoşlayıram.
- Tətil günlərində Play Station 3-də atamla "Sonic All starts Racing Transformed" oynayaraq yarımaq
- Məktəbdə gördüyüm adamlar mənim üçün önəmlidir, çünki onlar mənə işlərimdə kömək edirlər.

## MƏNƏ ƏN YAXŞI NECƏ DƏSTƏK GÖSTƏRMƏK OLAR

- Səhər 7:50-də məni oyadın ki, tələsmədən hazırlaşmaq üçün vaxtım olsun. Məktəbə çatanda tez-tez getməyimi xatırladın ki, işlərimi görə bilim və səhər yeməyinə çata bilim.
- Bəzən tələsəndə riyaziyyatı düzgün etmirəm. Mənə xatırladın ki, təmkinli olum və tələsmədən nə etdiyim barədə düşünüm.
- Əgər xahiş etsəm, zəhmət olmasa oyuna qoşulmağa icazə verin.
- Həyatdə nəsə problemlər üzləşəndə, onu özüm həll etməyi xoşlayıram. Bəzən onu həll etmək üçün böyüklərin köməyinə ehtiyacım olur.
- Mahnı oxuyanda notanı düzgün çatdırmayanda özümə əsəbləşirəm. Mənə deyin ki, bu, normaldır. Kimsə məni incidəndə qırmızı düyməmi basır - yəni mən çox hirslənirəm. Müəllim mənə sakitləşməyi xatırlatmalı və deməlidir ki, əgər mən də cavab olaraq onları vursam, başıma iş açacam və bu, mənim sakitləşməyimə kömək edir.
- Bəzən mikroavtobusla evə gedəndə mikroavtobus çox səs-küylü olur. Hər kəsin sakit olması və radionun səsinin davam etməsi mənə xeyli kömək edir.
- Mən etmədiyim nəyəsə görə günahlandırılanda, nəyin baş verdiyini deməyimə icazə verin. Mənə inanmasanız, doğru deyib-demədiyimi bilmək üçün kameralara baxa bilərsiniz.
- Bəzən nahar yeməyini yeməyim uzun çəkir və nahar fasiləsində oynamağa vaxtım olmur
- Xahiş edirəm, mənə o qədər çox əzmə verməyin. Çünki mən həmişə yemək qutumdakı hər şeyi yeyirəm və onu içmək çox vaxt aparır.
- Mən bir az nadinclik edəndə, ağlayanda anam tez yatmaq üçün yataq otağına göndərir. Mən çalışıram özümü yaxşı aparım ki, tez yatmayım. Mənə deyin ki, davranışım belə davam etsə, tez yatmağımla nəticələnəcək. Bu halda, mən dayanıb özümü düzəltmək üçün imkan qazanıram.

# İstinadlar

Booth, Tony, and Mel Ainscow. *The Index for Inclusion. A Guide to School Development Led by Inclusive Values. 4th Edition.* Cambridge: Index for Inclusion Network, 2016.

Burns, Mary. "Five Models of Teacher-Centered Professional Development." Mənbə: https://www.globalpartnership.org/blog/five-models-teacher-centered-professional-development (Last accessed on 01/11/18): Education Development Centre, 2014.

DuFour, Richard, Rebecca DuFour, Robert Eaker, Thomas W Many, and Mike Mattos. *Learning by Doing. A Handbook for Professional Learning Communities at Work. Third Edition.* Bloomington: Solution Tree Press, 2006.

Grimes, Peter, Arlene Dela Cruz, and Kaisa Sol Cruz. "Inclusive Education in Practice: Developing Inclusive Classrooms and School Communities - Coaching and Mentoring Guide." Manila: Teacher's Gallery, 2018.

Lewis, Ingrid, and Sunit Bagree. "Teachers for All: Inclusive Teaching for Children with Disabilities." Brussels: IDDC, 2013.

UNESCO. "Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. Booklet 2, Working with Falilies and Communities to Create an Ilfe." Bangkok: UNESCO, 2004.

UNICEF. "Webinar 13. Parents, Family and Community Participation in Inclusive Education. Companion Technical Booklet." Nyu-York: UNICEF, 2014.

---

[i] Richard DuFour et al., *Learning by Doing. A Handbook for Professional Learning Communities at Work. Third Edition* (Bloomington: Solution Tree Press, 2006).

[ii] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb:

[iii] Mary Burns, "Five Models of Teacher-Centered Professional Development," (Mənbə: https://www.globalpartnership.org/blog/five-models-teacher-centered-professional-development (Last accessed on 01/11/18): Education Development Centre, 2014).

[iv] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: Peter Grimes, Arlene Dela Cruz, and Kaisa Sol Cruz, "Inclusive Education in Practice: Developing Inclusive Classrooms and School Communities - Coaching and Mentoring Guide," (Manila: Teacher's Gallery, 2018)

[v] UNICEF, "Webinar 13. Parents, Family and Community Participation in Inclusive Education. Companion Technical Booklet," (New York: UNICEF, 2014).

[vi] UNESCO, "Embracing Diversity: Toolkit for Creating Inclusive, Learning-Friendly Environments. Booklet 2, Working with Falilies and Communities to Create an Ilfe," (Bangkok: UNESCO, 2004).

[vii] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: eyni mənbə

[viii] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: eyni mənbə

[ix] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: Ingrid Lewis and Sunit Bagree, "Teachers for All: Inclusive Teaching for Children with Disabilities," (Brussels: IDDC, 2013).

[x] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb : Helen Sanders Associates, "One-page profile of a child with special educational needs – Connor,' http://helensandersonassociates.co.uk/person-centred-practice/one-page-profiles/one-page-profiles-education/sen-one-page-profile/